**Həyat yoldaşı, övlad, karyerasında uğurlar əldə etmiş iş qadını kimi çox xoşbəxt olduğunu deyir. Sevdiyi işlə məşğuldur, çox gözəl və peşəkar kollektivlə çalışır, qadınların inkişafına az da olsa, töhfəsini verə bilir, ən əsası isə sevdiyi insanla ailə həyatı qurub. Bütün bu nüansları nəzərə alaraq deyir ki, əsas uğuru xoşbəxtliyidir. Onun fikrincə, insan hər şeyi ona görə edir ki, daha da xoşbəxt olsun. Müsahibimiz CyberNet şirkətinin Layihələrin İdarə olunması Şöbəsinin rəhbəri, "Femmes Digitales - Azərbaycan qadınları İKT-də" klubunun həmtəsisçisi Şəhla Məmmədovadır.**




# "Əsas uğurum xoşbəxtliyimdir"

## Şəhla Məmmədova: "Şanslı xanımlardan biriyəm ki, həyat yoldaşım məni hər bir mövzuda dəstəkləyir, arxamdadır"

**Lalə MUSAQIZI**

**- Amerikadan yeni qayıtmısınız. Əvvəlcə səferiniz barədə məlumat verərdiniz...**

- Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyi tərəfindən elan edilmiş və Amerika hökuməti tərəfindən maliyyələşdirilən "Women in STEM - Leadership" proqramı çərçivəsində iki həftə ABŞ-da olduq. Bildiyimiz kimi, Azərbaycan hökuməti hazırda iqtisadiyyatımızın diversifikasiyası üçün bir sıra tədbirlər həyata keçirməkdədir ki, bunlardan biri də qeyri-neft sektorunun inkişafı və Azərbaycan məhsullarının xaricə ixrac olunmasının təşviqidir. Perspektivli sahə kimi informasiya texnologiyaları sahəsinin inkişafı və yerli İT məhsulların xarici bazara çıxarılması da bu strategiyanın tərkib hissəsidir. İştirakçısı olduğum bu proqramın məqsədi də həm İT, həm də ümumilikdə STEM sahəsi üzrə təcrübə mübadiləsi, qadınların bu sahədə üzləşdiyi sosial maneələrlə mübarizə metodlarının öyrənilməsindən ibarət idi. Proqram çərçivəsində Amerikada müxtəlif özəl və dövlət qurumlarında, universitet və məktəblərində olduq, müxtəlif İT şirkətləri ilə görüşdük, şirkətlərin İT məhsulları və məhsulların hazırlanma texnologiyaları ilə yaxından tanış olduq, Amerikada və Azərbaycan qadınlarının İT-də rolu barədə fikir mübadiləsi apardıq. Açığı, artıq məktəbəqədər təhsil çərçivəsində uşaqlara tədris olunan robototexnika dərslərini, praktik məşğələlərin necə tədris olunduğunu, azyaşlı qızların düzəltdiyi robotları görəndə heyrətləndim. Çox istərdim ki, bizdə də uşaqların kiçik yaşlardan bu sahəyə marağının artırılması və İT vərdişlərə yiyələnməsi üçün oxşar təcrübə tətbiq olunsun. Bir də Amerikada təqaüdə çıxmış insanların sosial aktivliyi məni həqiqətən heyrətləndirdi, bizim yaşlı nəslin sosial aktivliyinin inkişaf etdirilməsi ilə bağlı bəzi ideyalarım formalaşdı, ümid edirəm, yaxın zamanda reallaşdıra biləcəyəm. İT şirkətlərdə mütəxəssislərlə fikir mübadiləsi zamanı görəndə ki, çalışdığım şirkətin iş prinsipi və istifadə etdiyi metodologiyalar, o cümlədən mütəxəssislərin bilik və bacarıqları heç də Amerika şirkətlərindən geri qalmır, əlbəttə, qürurlanırdım.

Təcrübə mübadiləsi ilə yanaşı, məndən əlavə 5 nəfər azərbaycanlı xanım həm də orada ölkəmizi təmsil edirdik, görüşlərdə İT sahəsi, Azərbaycanın təhsili, mədəniyyəti, tarixi, coğrafi mövqeyi və iqlimi, görməli yerləri və s. haqqında məlumatlar verirdik. Bir sözlə, bu çox maraqlı təcrübə idi.

**- İşinizlə bağlı mütəmadi olaraq xaricə səfərləriniz olur. Buna ailənizin münasibəti necədir?**

- Bildiyiniz kimi, çalışdığım CyberNet şirkəti yalnız Azərbaycanda deyil, o cümlədən xarici ölkələrdə də İT layihələr tətbiq etməkdədir. Layihələrlə birbaşa çalışan əməkdaş kimi, mənim xarici səfərlərimin olması labüddür. Yəqin mən o şanslı xanımlardan biriyəm ki, həyat yoldaşım məni hər bir mövzuda dəstəkləyir, arxamdadır. Hətta bəzi səfərlərə getməkdə tərəddüd edəndə o, məni getməyim üçün ruhlandırır. Buna görə ona təşəkkür edirəm. Yoldaşımla İT şirkətində işləyərkən tanış olmuşuq. Bu baxımdan mənim çalışdığım sahəni yaxşı bilir.

**- İT sahəsinə gəlişiniz maraqlıdır. Slavyan Universitetinin beynəlxalq münasibətlər ixtisasını bitirmisiniz. İT hara, beynəlxalq münasibətlər hara?**

- Məktəbdə oxuyanda əlaçı, sinif nümayəndəsi olmuşam. Sənədlərimi verəcəyim beynəlxalq münasibətlər, beynəlxalq hüquq dəbdə olan ixtisaslardan sayılırdı. İnsanın da içərisində bir az ambisiya olur, filan fakültəyə daxil olacağam deyəndə gözəl səslənir (gülür - L.M.). Yeri gəlmişkən, düşünürəm ki, bu sahədə bizim təhsil sistemimizdə boşluq var. Bu, həm də ailədən gələn problemlə əlaqəlidir. Uşaqlar çox vaxt valideynlərin ambisiyasına uyğun ixtisas seçməli olurlar. Abituriyentlər əksərən ixtisas seçərkən sabahısı nə işlə məşğul olacaqlarını, həmin ixtisasın onların maraq dairəsində olub-olmadığını heç fikirləşmirlər də... Bu barədə abituriyentlərin maariflənməyə, təbliğata ehtiyacı var. Mən orta məktəbdə oxuyanda İT sahəsi ilə bağlı az məlumatlı idim. İndi biz "Femmes Digitales - Azərbaycan qadınları İKT-də" klubu olaraq məktəblərə gedir və şagirdlərlə görüşürük. Görüşdüyümüz məktəblilər çox şanslıdırlar ki, bu sahə ilə indidən yaxından tanış ola bilirlər. Həmçinin məktəbli qızlarımız da İT sahəsində uğur qazanmış xanımları gördükdə başa düşürlər ki, qadınlar da bu sahəni seçə və peşəkar proqramçı, sistem admistratoru, dizayner, biznes analitik, proqram tətbiqçisi, testçi, layihə rəhbəri ola bilərlər. Ümumiyyətlə, İT sahəsində çeşid çoxdur, şagirdlərə incəlikləri danışanda, nəticədə onlarda İT barədə təsəvvür yaranır və orta məktəbi bitirib ixtisas seçərkən daha diqqətli olurlar.

Mən beynəlxalq münasibətləri bitirsəm də, professional karyerama İT sahəsindən başladım. Təsadüfən qarşılaşdığım Ultra İT şirkətinin elan etdiyi vakansiyaya müraciət etdim və işə qəbul oldum. Yavaş-yavaş bu sahəni dərindən öyrəndim və vəzifə pillələrində qalxmağa başladım.

**- Sizcə, Azərbaycanda, ümumiyyətlə dünyadakı qadınlarda nə çatmır ki, İT sahəsində kişilər üstünlük təşkil edir?**

- Doğru vurğuladınız, bütün dünyada digər sahələrdə olduğu kimi, İT sahəsində də balansın olmadığı müşahidə edilir. Bunun bir sıra səbəbləri var. Məncə, birinci səbəb, İT ilə bağlı qadınlarda kifayət qədər informasiyanın olmamasıdır. Cəmiyyətdə belə bir fikir formalaşıb ki, bu, kişilərin dominant olduğu sahədir, bu sahədə kişilər daha uğurludur. Bunlar stereotipdir. Qadınlar da kişilər qədər uğurlu ola bilərlər. Mən istənilən halda, bir şirkətdə, yaxud bir məhsulun işlənib hazırlanması üçün komandanın tərkibində həm qadınlar, həm də kişilərin olmasının tərəfdarıyam. Çünki biz qadın olaraq bir məsələyə başqa yöndən, kişilər başqa bir yöndən baxırlar. Araşdırmalar göstərir ki, bu baxış nöqtələri birləşəndə məhsul daha uğurlu, daha kompleks, hamının istifadəsi üçün daha rahat olur. İdarə etdiyim layihələrdə də mütləq şəkildə xanımların iştirak etməsinə çalışıram.




Xanım və kişi olmasından asılı olmayaraq, əgər insan özünə inanırsa, daim öz üzərində işləyib dəqiq biliklərə yiyələnirsə, daim inkişafdadırsa, mütləq uğur əldə edəcək.

**- Beş il Ultra şirkətində çalışmısınız. Bu müddətdə üç dəfə vəzifə pilləsində irəliləyişiniz olub. CyberNet şirkətində çalışdığınız 4 il ərzində isə dörd dəfə irəli çəkilmisiniz. Hansı xüsusiyyətlərinizə görə sizə güvənib daha məsuliyyətli işlər həvalə edilir?**

- Təbiətcə çox dinamik insanam. Özümü çox tərifləmək istəməzdim, amma daim axtarışda, inkişafdayam və yeni nələrsə öyrənməyə, öz üzərimdə işləməyə meyilliyəm, özümə və işimə qarşı tələbkaram (gülür - L.M.). Yəqin ki, rəhbərlik bu xüsusiyyətlərimi, həmçinin işimin nəticələrini, işə yanaşmamı, peşəkarlığımı və operativliyimi görüb qiymətləndirir. Ümumiyyətlə, şanslıyam ki, bunları görüb dəyərləndirə bilən rəhbərlərlə qarşılaşmışam.

Onu da qeyd edim ki, bu il təşkil edilmiş AWITA-2017 müsabiqəsində İT sahəsində bu günə qədər əldə etdiyim uğurların nəticəsi olaraq İlin Rəqəmsal Lideri seçildim.

**- İT sahəsi nəinki günbəgün, saatbasaat, hətta dəqiqəbədəqiqə inkişaf edir. Bu inkişafa çatmaq üçün nə edirsiniz?**

- Doğrudur, İT sahəsi işıq sürəti ilə inkişaf edir. Bir-iki il əvvəl mövcud olan texnologiya bu il artıq aktuallığını itirir. Buna görə çalışıb o dinamikanı tutmaq lazımdır. Özün də mütləq inkişaf etməlisən. Qayınanamla anam bir yerdə olanda həmişə zarafatla deyirlər ki, bizim qızımız hələ də oxuyur. Daim öz üzərimdə işləyir, trendləri izləyir, yeni texnologiyaları öyrənməyə çalışır, öz sahəm üzrə müxtəlif təlimlərdə iştirak edir, sertifikat imtahanlarına hazırlaşıram. Mənim uğurlarım hələ qarşıdadır.

**- Özünüzü inkişaf etdirmək üçün İT sahəsi ilə bağlı seminarlarda, treninqlərdə iştirak etdiyinizi dediniz. Sizcə, uzun illər idarəçilikdə çalışan peşəkarların idarəçiliklə bağlı seminarlara qatılmağa ehtiyac var, yoxsa, təcrübə özü öyrədir?**

- Düzdür, təcrübə, idarəçiliyi də, peşəkarlığı da öyrədir, amma şəxsən mən bununla kifayətlənmirəm. Yeni idarəçilik prinsiplərini öyrənmək üçün həm xarici, həm də yerli peşəkarlarımızın ölkəmizdə düzənlənən seminarlarına qatılıram. Bu seminarlarda iştirak etmək illik iş planımın ayrılmaz hissəsidir. Çünki İT çox dinamik sahədir və idarəetmə metodları da bu dinamikaya uyğun olmalıdır. Mütəmadi olaraq onlayn treninqlərdə də iştirak edirəm. Başa düşürəm ki, hamının işini atıb xarici ölkələrə treninqlərə getməyə, yaxud Azərbaycana gələn əcnəbi peşəkarların treninqlərində iştirak etməyə imkanı yoxdur. İnternet bu baxımdan bizə böyük imkanlar açır. İdarəetmə, yaxud ixtisasımız üzrə istənilən treninqi tapıb onlayın dinləyə bilərik. Bu daha ucuz başa gəlir və canlı təlimdən heç də geri qalmır.

**- Şəhla xanım, işdən bir az uzaqlaşaq. Bir qadının xoşbəxt olması üçün nə lazımdır?**

- İlk növbədə həmin qadının özünün xoşbəxt olmaq istəməsi lazımdır. Hər şey insanın özündən başlayır. Nə baş verməsindən asılı olmayaraq, pozitiv olmaq, özünü və digərlərini motivasiya etmək və müsbət nəticələrə köklənmək lazımdır. Mən bir qadın, həyat yoldaşı, övlad, karyerasında uğurlar əldə etmiş iş qadını kimi çox xoşbəxtəm. Ona görə xoşbəxtəm ki, sevdiyim işlə məşğulam, çox gözəl və peşəkar kollektivlə çalışıram, qadınların inkişafına az da olsa, öz töhfəmi verə bilirəm. Ən əsası isə sevdiyim insanla ailə həyatı qurmuşam. Məni hər mövzuda dəstəkləyən, başa düşən həyat yoldaşım var. Bütün bu nüansları nəzərə alaraq deyə bilərəm ki, mənim əsas uğurum xoşbəxtliyimdir. İnsan hər şeyi ona görə edir ki, daha da xoşbəxt olsun.